KİTABŞÜNASLIQ VƏ REDAKTOR SƏNƏTİ
elmi-nəzəri və təcrübi-metodik jurnal

№ 1 (17) 2023

İradə Ziyadxan qızı Bayramova
*Bakı Dövlət Universiteti*
*İnformasiya və sənəd menecmenti fakültəsi*
*Sənəd menecmenti kafedrasının müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*
*irade8@mail.ru*

# AZƏRBAYCANIN REGİONLARINDA FƏALİYYƏT GÖSTƏRƏN UNİVERSİTETLƏRDƏ ELMİ-TƏDQİQATLARIN SƏNƏD-İNFORMASİYA TƏMİNATININ İNKLÜZİV İNKİŞAFININ TƏŞKİLİ

***Xülasə:*** *Məqalədə Azərbaycanın regionlarında fəaliyyət göstərən Universitetlərdə elmi-tədqiqatların sənəd-informasiya təminatının vəziyyəti və cəmiyyətin inklüziv inkişafı məsələləri araşdırılmışdır. Araşdırmada əsasən, Azərbaycan Respublikasının cənub regionunda Lənkəran Dövlət Universitetinin, qərb regionunda Gəncə Dövlət Universitetinin, Mərkəzi Aran regionunda Mingəçevir Dövlət Universitetinin və Bakı şəhərində yerləşən Azərbaycan Dövlət İqtisad Universitetinin elmi-tədqiqat fəaliyyəti, sənəd-informasiya təminatı məsələləri və inklüziv inkişafdan, bu sahədə qarşıda duran vəzifələrdən bəhs edilir.*

***Açar sözlər:*** *Gəncə Dövlət Universiteti, elmi-tədqiqat fəaliyyəti, inklüziv inkişaf, elmi fəaliyyətin idarə edilməsi.*

**Irada Ziyadxan gizi Bayramova**

## Organization of the inclusive development of document information supply of scientific research in the universities operating in the regions of Azerbaijan

***Abstract:*** *In the article, the situation of document-information provision of scientific researches in the universities in the regions of Azerbaijan and the issues of inclusive development of the society were investigated. According to the research, the research activities of Lankaran State University in the southern region of the Republic of Azerbaijan, Ganja State University in the western region, Mingachevir State University in the Central Aran region, and Azerbaijan State University of Economics located in Baku, issues of document eand information provision and inclusive development, are among the tasks ahead in this field is discussed.*

***Key words:*** *Ganja State University, scientific-research activity, inclusive development, management of scientific activity.*

Ирада Зиядхан кызы Байрамова

## Организация и обеспечение инклюзивного развития документа-информации в научных-исследованиях в Университетах действующих в регионах Азербайджана

***Резюме:*** *В статье исследовалась ситуация организации инклюзивного развития документа-информации в научных-исследованиях в Университетах действующих в регионах Азербайджана. Согласно исследованию рассматривались вопросы научно-исследовательской деятельности, обеспечения документа-информации, инклюзивное развитие и вопросы связанные в этой области находящимся на юге Азербайджанской Республики - Ленкоранском Государственном Университете, на западе – Гянджинском Государственном Университете, на регионе Центрального Арана – Мингячевирском Государственном Университете и находящимся в городе Баку- Азербайджанском Государственном Экономическом Университете.*

***Ключевые слова:*** *Гянджинском Государственный Университет, научно-исследовательская деятельность, инклюзивное развитие, управление научной деятельности.*

**Giriş:** Hazırda ölkəmizdə elmi-tədqiqat işlərinin informasiyalaşdırılması, elektron nəşrlər, elmi-kütləvi, təhsil, mədəni-maarif və.s tədris proqramları, informasiya sistemləri, elektron dərsliklər, distant tədris texnologiyaları yaradılır və istifadə edilir. Akademik elmi-tədqiqat institutları, kitabxanalar, muzeylər, arxivlər kompyuterləşdirilmiş və İnternetə qoşulmuşdur. İnformasiya resurslarından alim və mütəxəssislərə sərbəst istifadə imkanı yaratmaqla, rəqəmli kitabxanalar şəbəkəsi formalaşdırmaqla elmi informasiya mərkəzləri və fondları arasında səmərəli əlaqənin qurulması təmin edilir.

Bəşər sivilizasiyası tarixində informasiya emalı sahəsindəki köklü dəyişikliklərə müvafiq olaraq bir-neçə informasiya inqilabı olmuşdur. Birinci inqilab - yazının, ikinci inqilab - kitab çapının, üçüncü inqilab – elektrikin, teleqrafın, telefonun, radio-televiziyanın, dördüncü inqilab-fərdi kompyuterlərin, İnternetin meydana gəlməsi ilə əlqədardır. Buradan belə nəticə çıxarmaq olar ki, artıq cəmiyyətin inkişafı informasiya mərhələsinə daxil olmuşdur. Ona görə də informasiyanın tarixi, əslində dördüncü informasiya inqilabı ilə başlayır (14).

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2021-ci il 2 fevral tarixində "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" haqqında Sərəncam imzaladı. Sərəncamda deyilirdi: "Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədi ilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir" (5).





İnklüziv inkişaf müasir texnoloji innovasiyanın regional aspektdə inkişafına təsir etməklə, informasiyanın elmi-nəzəri əsaslarının hazırlanmsı, İKT sektorunun rəqabətqabiliyyətli perspektiv inkişaf potensialının formalaşmasına şərait yaradır. Bu baxımdan innovativ perspektivlərin qiymətləndirilməsi metodu, elm, texnologiya sisteminin inkişafının informasiya təminatına effektiv təsirini də nəzərə almaq lazımdır. Regional universitetlərdə innovativ fəaliyyətlə bağlı xarici və ölkədaxili elmi müəssisələrlə əlaqələrin qurulması istiqamətində elmi-praktiki konfransların keçirilməsi bu sahədə ilkin hazırlıq işlərinin həyata keçirilməsinə təkan verir.

Elmi fəaliyyətin təşkili, idarə edilməsi və inkişafı sahəsində dövlət siyasətinin əsas prinsiplərini, elmi innovasiya fəaliyyətinin məqsədlərini və elmi nailliyyətlərin stimullaşdırılmasını, onlardan istifadə imkanlarının təşkilati-hüquqi əsaslarını müəyyən etməklə, ölkənin sosial-iqtisadi və mədəni inkişafının təmin edilməsi və s. həyata keçirilməsi qarşıda duran mühüm məsələlərdən biridir. Obyektiv biliklərin və informasiyaların əldə edilməsi, toplanması, sistemləşdirilməsi, işlənməsi, yayılması və informasiya tələbatının təmin edilməsi kimi fəaliyyət sahələrinin həyata keçirilməsi, konkret informasiya daşıyıcılarında əks olunan, maddi və ictimai dəyərə malik, müəyyən elmi istiqamət üzrə yeni biliklər yaratmaq, ötürmək və tətbiq etmək funksiyalarını yerinə yetirən elmi fəaliyyət sahələrinin inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır (6).

**Əsas:** Ölkəmizin cənub regionunda fəaliyyət göstərən Lənkəran Dövlət Universiteti Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 sentyabr 1991-ci il tarixli 319 saylı qərarı ilə BDU-nun Lənkəran filialı kimi açılmışdır. Fəaliyyətinin ilk illərində Lənkəran Dövlət Universitetində 12 ixtisas üzrə 218 tələbə təhsil almışdır. İnformasiya-Kommunikasiya və Kitabxana Mərkəzi Universitetin əsas struktur bölmələrindən biri olub, tədris, elmi-tədqiqat və təlim-tərbiyə prosesinin informasiya və informasiya-kommunikasiya təminatını həyata keçirən, biliyi, elmi, mədəniyyəti yeni metodlarla təbliğ edən, çap məhsullarını və elektron resursları toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən, cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən sosial institutdur. Mərkəz Universitetin fəaliyyəti dövründə "Kompüter Mərkəzi", "İnformasiya Texnologiyaları Mərkəzi", "İnformasiya Kommunikasiya Texnologiyaları Mərkəzi" və "Elmi Kitabxana" kimi fəaliyyət göstərir. Mərkəz özündə iki struktur bölməni – İnformasiya və Kommunikasiya texnologiyaları və Kitabxana bölmələrini birləşdirir.

Lənkəran Dövlət Universitetinin Elmi Kitabxanası 1992-ci ildən fəaliyyət göstərir və universitetin strukturunda mühüm bölmə olaraq təhsil və informasiya funksiyalarını yerinə yetirən bölmə kimi tədris prosesini, müəllim və tələbələri kitabxananın fondunda olan ədəbiyyat və başqa materiallarla təmin etməklə universitetin kadr hazırlığında yaxından iştirak edir.

Lənkəran Dövlət Universitetinin Elmi Xəbərlər (Humanitar elmlər seriyası, İSSN 2617-8036) jurnalında humanitar elmlərin müxtəlif sahələrinə, həmçinin dilçilik, ədəbiyyatşünaslıq, tarix, şərqşünaslıq, pedoqogika, sosiologiya və psixologiya sahələrinə aid yüksək keyfiyyətli, yeni nəticələri özündə saxlayan məqalələr çap edilir. Jurnal Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən tövsiyə edilən elmi nəşrlərin siyahısına daxildir. Elmi Xəbərlər (Riyaziyyat və Təbiət elmləri seriyası İSSN 2617-8052) jurnalıında riyaziyyat və təbiət elmləri sahəsində yeni nəticələri özündə əks etdirən orijnal məqalələr çap edilir (7).

Mərkəzi Aran iqtisadi rayonunda yerləşən Mingəçevir Dövlət Universiteti Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 24 iyul 2015-ci il tarixli 1335 nömrəli Sərəncamı ilə yaradılmışdır. Əsası 1991-ci ildə qoyulmuş Universitet müxtəlif vaxtlarda Azərbaycan Sənaye Universitetinin Mingəçevir filialı, Mingəçevir Energetika İnstitutu və Mingəçevir Politexnik İnstitutu adı ilə fəaliyyət göstərmişdir. Universitetdə 24 ixtisas (bakalavriat) və 14 ixtisaslaşma (magistratura) üzrə kadr hazırlığı həyata keçirilir. İnnovativ təlim metodlarının və çevik universitet idarəetmə mexanizmlərinin tətbiqi, elmi fəaliyyətin səmərəliliyinin artırılması, yerli və xarici universitetlərlə qarşılıqlı əməkdaşlığın genişləndirilməsi və.s universitetin gələcək inkişaf prioriteti olaraq həyata keçirilir. Universitetdə elmi tədqiqatların məzmununun təkmilləşdirilməsi, elmi fəaliyyətin nəticə yönümlülük yanaşması üzərində qurulmasına xüsusi diqqət yetirilməklə, dünyanın aparıcı elmi-məlumat bazası olan "Veb of Science" platformasında profili yaradılıb (8).

2021-ci ildə MDU-nun tarixində ilk elmi jurnal olan "Dayanıqlı inkişaf və Regional İnnovasiyalar" tədqiqat Mərkəzi yaradılmışdır. Elmi tədqiqatların məzmununun təkmilləşdirilməsi, gənc tədqiqatçıların respublika və beynəlxalq konfranslarda iştirakına dəstəyin gücləndilməsi, müxtəlif mövzular üzrə elmi seminarların keçirilməsi də universitetin qarşıya qoyduğu hədəflərdəndir (8).

Universitetin struktur bölmələri içərisində "Elm və İnnovasiyalar" şöbəsi xüsusi yer tutur. Şöbə 2019-cu ildə universitetdə aparılan struktur islahatları çərçivəsində yaradılmışdır. Şöbə universitetin elmi potensialının, elmi-texniki resurslarının statistikasını aparır.

Mingəçevir Dövlət Universitetinin "İnformasiya Texnologiyaların Mərkəzi" əsas struktur bölmələrdən biri olaraq tədris, elmi-tədqiqat və tərbiyə prosesinin informasiya təminatını həyata keçirən biliyi, elmi yeni metodlarla təbliğ edən, çap məhsullarını və elektron resursları toplayıb mühafizə edən, onların sistemli ictimai istifadəsini təşkil edən cəmiyyətin intellektual və mənəvi potensialının inkişafına xidmət göstərən strukturdur (8).

Azərbaycan Respublikasının qərb regionunda fəaliyyət göstərən Gəncə Dövlət Universiteti 1938-ci ildə natamam ali təhsil verən ikiillik müəllimlər institutu kimi fəaliyyətə başlamış, 1943-cü ildən tam ali təhsil verən tədris müəssisəsinə çevrilmişdir. Respublika üçün ali təhsilli pedaqoji kadrlar





hazırlayan əsas təhsil mərkəzlərindən birinə çevrilmişdir. 2000-ci ildən Gəncə Dövlət Universiteti kimi fəaliyyət göstərir. Universitetdə 8 fakültə, 13 şöbə var.

Gəncə Dövlət Universitetinin İnnovasiyalar Departamenti 2017-ci ildən fəaliyyət göstərir. Departamentin nəzdində 5 yeni şöbə yaradılmışdır: 1) İnnovasiya texnologiyalarının transferi və marketinqi; 2) Strateji təhlil, qiymətləndirmə və monitorinq; 3) İnformasiya resurslarının formalaşması; 4) Layihələrin idarə edilməsi şöbəsi; 5) Əqli mülkiyyət şöbəsi; Eyni zamanda rektorun müvafiq əmrinə əsasən İnformasiya Kommunikasiya Texnologiyaları, Beynəlxalq Əlaqələr və Nəşriyyat şöbəsi də İnnovasiyalar Departamentinin tərkibinə daxil edilmişdir. İnnovasiyalar Departamenti elmi-tədqiqat işlərinə investisiyaların cəlb olunması, bu istiqamətdə sərmayə yatıran özəl sektora müəyyən güzəştlərin edilməsi və əlverişli mühitin yaradılması yolu ilə strateji hədəflərə nail olmaq üçün bilik iqtisadiyyatına öz töhfələrini verir (9).

Gəncə Dövlət Universitetinin dünyanın nüfuzlu ali məktəbləri ilə elmi əlaqələri var: İtaliyanın Urbino, Sloveniyanın Nova Gorika, Rumıniyanın Galati, Macarıstanın Debresen, İspaniya Krallığının Ucam Mursiya, Türkiyənin Qazi və Sivas Universitetləri və.s ilə aktiv ikili müqavilələr mövcuddur. Universitetin professor-müəllim kollektivinin, tələbə və magistrlərin 350-dən çox elmi-tədqiqat işləri respublikanın və dünyanın nüfuzlu və impakt-faktorlu elmi jurnallarında nəşr edilmişdir (10).

Ölkəmizdə fəaliyyət göstərən universitetlərdən biri də Azərbaycan Dövlət İqtisad Universitetidir. Respublikamızda ali təhsillli iqtisadçı kadrların hazırlanmasına ötən əsrin 20-ci illərindən başlanmışdır. 1922-ci ildə Azərbaycan Dövlət Universitetinin İctimai Elmlər fakültəsində İqtisad bölməsi açılmış və bu bölmə 1930-cu ilə qədər iqtisadçı kadrlar hazırlamışdır. 1930-cu ildə rəsmi şəkildə Azərbaycan Dövlət İqtisad Universiteti yaradılmıdır. Müstəqillik illərinə qədər ayrı-ayrı adlarla fəaliyyət göstərmiş, 1990-cı ildə Azərbaycan Dövlət İqtisad İnstitutu kimi yenidən fəaliyyətə başlamışdır. Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 349 saylı Fərmanı ilə Azərbaycan Dövlət İqtisad Universiteti kimi fəaliyyət göstərir (11).

UNEC-in 10 fakültəsində 22 ixtisas üzrə 18 mindən çox tələbə təhsil alır. UNEC Tədqiqat Universitedir və dünya elm məkanına aktiv inteqrasiya olmuşdur. İqtisadiyyatın ənənəvi və yeni aktual problemləri üzrə beynəlxalq konfranslar, forumlar, elmi seminarlar keçirilir. ABŞ, Avropa, MDB, Asiyanın qabaqcıl universitetləri ilə birgə onlayn rejimdə video konfranslar təşkil edilir və alimlər beynəlxalq elmi konfranslarda, dünyanın tanınmış tədqiqat mərkəzlərində məruzələrlə çıxış edirlər. İqtisadi təhsil sayəsində 2009-cu ildə Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı ilə "İqtisadi Araşdırmalar Elmi-tədqiqat İnstitutu" yaradılmışdır.

Universitetin professor-müəllim kollektivini dünyada mövcud elm və innovasiya proseslərinə cəlb etmək və bu istiqamətdə tələbə heyətinin iştirakını təmin etmək qarşıya qoyulan əsas məsələlərdən biridir. Müasir elmi-

innovativ formaların, elmi-tədqiqat işlərinin idarə olunmasının təkmilləşdirilməsi, tədqiqatçı alimlərin elmi intellektinin və bacarıqlarının daim artırılması, elmi istiqamətlərin formalaşdırılması, iqtisad elmi ilə bağlı nəşrlərin hazırlanmasını, yayılmasını, universitet alimlərinin elmi məqalə və tezislərinin beynəlxalq səviyyəli jurnallarda çap edilməsini həyata keçirmək universitetin qarşısında duran əsas vəzifələrdən biri olmuşdur.

Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) 2018-ci ildə Elmi fəaliyyətin təşkili və idarə edilməsi Departamenti yaradılıb. 1997-ci ildən "Elmi-tədqiqat" şöbəsi "Elm" şöbəsi adlanır (12).

UNEC - beynəlxalq səviyyəli vəzifələrin həllində əsas rolu "Beynəlxalq Əməkdaşlıq Departamenti" oynayır. Müasir informasiya texnologiyalarının müstəsna rolunu nəzərə alaraq, 2014-cü ildən "Beynəlxalq Əlaqələr və İnformasiya Texnologiyaları" şöbəsi adlandırılmışdır. Universitetin nüfuzunun artırılması, Avropanın və dünyanın təhsil standartlarına uyğunlaşması istiqamətində mühüm işlər görülmüş, universitetin əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlar, dövlət qurumları, təhsil mərkəzləri və xarici universitetlərlə əlaqələri genişlənmiş, yeni layihə və tədbirlər hazırlanmışdır. 2006-cı ildə Beynəlxalq Reytinq Texnologiyaları Akademiyası (Ukrayna, Kiyev) UNEC-i "Qızıl Fortuna" 21-ci əsrin keyfiyyət nişanı ilə təltif etmişdir. Universitet innovasiya strategiyası əsasında Boloniya Prosesinə fəal qoşulmuş, 2005-2008-ci illər ərzində Avropa Universitetlər Assosiyasına, İslam dünyasının Universitetlər Federasiyasına və.s qəbul olunmuşdur. 2013-cü ildə UNEC-in "Beynəlxalq əlaqələr sahəsində universitet idarəçiliyinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi" mövzusunda TEMPUS layihəsi Avropa Komissiyası tərəfindən qalib elan olunmuşdur. UNEC dünyanın 250 aparıcı universiteti ilə elmi əməkdaşlıq edir. Beynəlxalq elmi əməkdaşlıq sahəsində dünyanın bir-çox ölkələrinin qabaqcıl təhsil müəsissələri ilə əlaqələr qurur.

UNEC-də "Analitik-informasiya resursları mərkəzi", "Tədrisin keyfiyyətinin Qiymətləndirilməsi və İdarəedilməsi Mərkəzi" fəaliyyət göstərir. Tədrisin keyfiyyətinin yüksəldilməsi və inkişaf konsepsiyalarının həyata keçirilməsi üzrə təkliflərin hazırlanması, tədris-metodiki işin məzmunu, forma və metodlarının təkmilləşdirilməsi sahəsində metodiki tövsiyələrin işlənməsi və tədris prosesi ilə bağlı metodiki materialların keyfiyyətinə nəzarət kimi funksiyaları həyata keçirir. Mərkəz 2015-2016-cı tədris ilindən etibarən UNEC Elektron Universitet Modelinin modullarının hazırlanması və tətbiqi ilə əlaqədar işləri icra edir (13).

UNEC-də "Elektron İdarəetmə Mərkəzi" 1970-ci illərdə "Hesablama Mərkəzi" kimi adlandırılmışdır. 2010-cu ildən "İnformasiya-Kommunikasiya Texnologiyaları Mərkəzi" kimi fəaliyyət göstərir. 2017-ci ildə "İnformasiya-Kommunikasiya Texnologiyarı Mərkəzi" ləğv edilərək, onun bazası əsasında "Elektron İdarəetmə Mərkəzi"nin strukturu müəyyənləşmişdir. Universitetdə 2016-cı ildə "Tərcümə Mərkəzi" də yaradılmışdır. Şöbənin yaradılmasında





məqsəd. tədrisin yeni, müasir dövrün tələblərinə cavab verəcək iqtisadi resurslarla təmin edilməsi, elm, təhsil, mədəniyyət və iqtisadiyyatın müxtəlif sahələrinə dəstək verilməsi, bu sahələrin inkişaf etdirilməsinə xidmət edən layihələrin həyata keçirilməsini təmin edən təsisatdır (11).

UNEC kitabxanası 1930-cu ildən Əsaslı kitabxana kimi fəaliyyət göstərir. 2019-cu ildən Əsaslı Kitabxananın bazasında UNEC Kitabxana-informasiya Mərkəzi yaradılmışdır. UNEC-in Kitabxana-informasiya Mərkəzi aparıcı struktur bölmələrdən biri olub, təlim-tərbiyə və elmi-tədqiqat prosesinə, tədris, elmi, metodiki ədəbiyyatla və informasiya mənbələri ilə təmin edən və bilikləri təbliğ edən mənəvi, intellektual əlaqələrin yayılması mərkəzidir. Kitabxananın strukturuna 1 saylı, 2 saylı və 4 saylı tədris binalarının kitabxanaları daxildir. Kitabxanada müxtəlif dillərdə 80166 nüsxə informasiya resursları var: dissertasiya, avtoreferat, tədris proqramları, elmi jurnallar və.s Fondda dünyanın məşhur nəşriyyatlarından "Springer", "Pearson", "Global Edution", "EBSCO" və.s məxsus olan resurslar da var.

Dünyanın bilik və təcrübə xəzinəsindən istifadə etmək üçün, iqtisadiyyat üzrə fundamental əsərlərin Azərbaycan dilinə tərcümə edilməsi və müxtəlif kafedralar tərəfindən tərcümə edilən kitabların kitabxana fonduna təqdim edilərək, tələbatçıların istifadəsinə verilməsi diqqətəlayiqdir. Ümumilikdə, kitabxanada 40 adda ədəbiyyat və dövri nəşrlərə abunə olunmuşdur.

2019-cu ildə UNEC-də ilk dəfə olaraq "Universitetlərarası I Kitabxana Forumu" təşkil edilmiş, "Akademik kitabxanaların inkişaf perspektivləri: 24/7 modelindən yeni hədəflərə doğru" mövzusunda Respublika Elmi-Praktik Konfransı keçirilmişdir. Qeyd edək ki, kitabxana tələbatçıların profilinə uyğun ənənəvi və elektron informasiya xidməti göstərmək, məlumat-biblioqrafiya aparatını yaratmaq və təkmilləşdirmək, yeni informasiya texnologiyalarından istifadə etməklə xidmət səviyyəsini yüksəltməyə çalışır (13).

UNEC-də "Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərlər" jurnalı nəşr olunur. Jurnal 2012-ci ilin noyabr ayından Mətbu nəşrlərin reyestrinə daxil edilmşdir. 2012-ci ildən jurnal "İSSN 2306-8426" Beynəlxalq Standart Seriya Nömrəsi almışdır. Jurnalın nəşr edilməsinin əsas məqsədi iqtisad və digər elmlərin müasir problemlərini nəzəri və praktiki uzlaşmada elmi-metodoloji cəhətdən istifadə edən orijnal məqalələrin çapına üstünlük verməkdən ibarətdir.

"İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalı da Azərbaycan Dövlət İqtisad Universitetinin təsisçiliyi ilə 1994-cü ildən çap olunur. Nəzəri və elmi-praktik səviyyəli jurnaldır. Jurnal 2012-ci ildən ingilis dilində nəşr edilir. Jurnalda iqtisad elminin müxtəlif sahələrini əhatə edən, nəzəri və praktik əhəmiyyətə malik, inkişaf etmiş müasir dövrün tələblərinə uyğun olaraq, elmi cəhətdən sanballı məqalələr nəşr edilir. Elmi jurnalda təkcə universitetin professor-müəllim heyətinin deyil, həm də gənc tədqiqatçıların, tələbələrin də məqalələri nəşr edilir. Jurnalın Beynəlxalq Seriya Nömrəsi (İSSN 2220-8739)-

dur. Jurnalın strukturunun və nəşr edilən məqalələrin beynəlxalq standartlara uyğun olması prosesi başa çatmışdır. Jurnal EBSCO Databases və Journal of Economic Literature in American Economic Association Publications kimi tanınmış indekslərdə qeydiyyatdadır (14).

İnklüziv inkişaf - iqtisadi inkişaf dövründə iqtisadi proseslərin iştirakçılarına cəmiyyətin hər bir sahəsi üçün faydaları olan bərabər imkanlar təmin edən konsepsiyadır. Inklüziv cəmiyyətin formalaşmasınnın mühüm şərtlərindən biri hər bir insanın məxsusi potensialının formalaşmasında və inkişafında mühüm rol oynayan məktəblərin, təhsil sisteminin təkmilləşdirilməsi istiqamətində effektiv strategiyaların hazırlanması və həyata keçirilməsidir. Alim və mütəxəssislərin zəruri elmi informasiyalarla vaxtında təmin edilməməsi elmin inkişaf tempinin aşağı düşməsinə apara bilər.

Ali təhsil müəssisələri tədris prosesi ilə elmi fəaliyyətin vəhdətini təmin edən elmi fəaliyyət subyekti olmaqla, fakültələr, kafedralar, elmi kitabxanalar, laboratoriyalar, mərkəzlər, elmi tədqiqat institutları və digər elmi strukturların bazasında elmin müxtəlif sahələri və istiqamətləri üzrə fundamental, nəzəri-metodoloji, pedaqoji-metodiki və tətbiqi tədqiqatlar aparır, yüksək ixtisaslı elmi və elmi pedaqoji kadrların hazırlanmasını həyata keçirir.

Tədqiqat universiteti statusu əldə edən ali təhsil müəssisisəsinin nəzdində fəaliyyət göstərən elmi tədqiqat strukturlarının, aparılmış elmi-tədqiqat işlərinin nəticələri istehsalatda və tədris prosesində istifadə edilir. Elmin müxtəlif sahələri üzrə fundamental və tətbiqi tədqiqatlar həyata keçirən elmi tədqiqat institutu müstəqil və və ya müvafiq icra hakimiyyətinin müəyyən etdyi elmi təşkilatın, ali təhsil müəssisəsinin və digər qurumların nəzdində fəaliyyət göstərir.

Ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevrilir. Regionlarda yeni beynəlxalq və regional logistika dəhlizinin bərpa edilməsi ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli dərəcədə təkan verəcəkdir.

**Nəticə:** Beləliklə, ölkənin müxtəlif regionlarında yerləşən universitetlərin apardığı elmi-tədqiqat işləri, beynəlxalq elmi əməkdaşlıq sahəsində, inkişaf etmiş müasir informasiyalaşdırılmış cəmiyyətin tələblərinə uyğun olaraq, kadr hazırlığının həyata keçirilməsi üçün cəmiyyətin inkişafının inklüziivlik səviyyəsinin artırılmasında bütün vasitələrdən və ən müasir innovativ texnologiya olan İKT-dən maksimum yararlanması məlum oldu. İqtisadi regionlarda fəaliyyət göstərən Universitetlərin qarşısında duran əsas vəzifələrdən biri, inklüziv cəmiyyətin formalaşması səviyyəsinin regional, milli və beynəlxalq qiymətləndirilməsi məsələlərinin mahiyyətini diqqətə almaqdır.

Texniki tərəqqinin sürətlənməsi, xidmət və informaiya sektorunun inkişafı qeyri-maddi resursların - informasiyanın digər resurslara çevrilməsini təmin edir. Elmi-tədqiqatla məşğul olanlar və ya biliyin istehsalı, alınması, yayılması





və praktiki tətbiqi inkişafın ən vacib hərəkətverici qüvvəsinə çevrilməlidir. Milli innovasiya sistemi yaradılmalı və onun elementlərinə-dünya bilik mənbələrinə çıxış, yeni biliklərin yaradılması və onların adaptasiyası, biliklərin geniş yayılması, biliklərin praktiki tətbiqi və.s kimi altsistemlər daxil edilməlidir.

Ölkəmizdə elmi tədqiqat potensialı müasirləşdirilməklə tətbiqyönlü tədqiqatların aparılması genişləndirilməlidir. Müasir texnogiyaların tətbiqi imkanlarının yaranmasında əqli mülkiyyətin rolu artırılmalıdır. Elmin müxtəlif sahələri üzrə elmi tədqiqatlar genişləndirilməli, müasir təfəkkürlü gənclər elmi araşdırmalara cəlb edilməlidir. Aparılan elmi tədqiqatlar beynəlxalq impakt-faktorlu jurnallarda çap olunmalı, qlobal informasiya cəmiyyətinin tələblərinə əsasən İKT-nin tətbiqi genişləndirilməlidir. Texnologiyaların innovativ inkişafda prioritet olduğundan elmi tədqiqatlarda mövcud maneələr müəyyən edilərək aradan qaldırılmalıdır. İKT üzrə nüfuzlu beynəlxalq universitetlərlə tərəfdaşlıq qurulmalı, rəqəmsal bacarıqlar formalaşmalıdır.

## ƏDƏBİYYAT

1. *Bayramova İ.Z Təhsildə müasir informasiya və kommunikasiya texnogiyaları // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal. - №2 (47). - 2020. - Bakı: Mütərcim, 2020. – 117 s.*

2. *Bayramova İ.Z. Azərbaycan Respublikasında regional elmi mərkəzlərin elmi fəaliyyəti. // Ümummilli Lider H.Əliyevin anadan olmasının 98-ci il dönümünə həsr olunmuş "Azərbaycan Respublikasında kitabxana-informasiya fəaliyyətinin inkişaf meylləri" mövzusunda Respublika Elmi Konfransının materialları. Bakı,7 may 2021-ci il. – Bakı: BDU, 2021. - 145 s.*

3. *Əliyev Ə.Q. İqtisadiyyatın inklüzivlik səviyyəsinin yüksəldilməsində İKT-nin rolu.- İnformasiya Cəmiyyəti Problemləri: elmi-praktik jurnal. - 2019. - Bakı. - 2019. - № 2. - S.51-59.*

4. *Qurbanova G. Azərbaycanda inklüziv inkişafın təmin olunmasında həyata keçirilən sosial və iqtisadi siyasətin rolu // Elm və İnnovativ Texnologiyalar Jurnalı. - 2019. - № 9. - S.49-61.*

***İnternet resursları***

5. *https://president.az/az/articles/view/50474*
6. *https://e-qanun.az/framework/*
7. *https://lsu.edu.az/news*
8. *https://mdu.edu.az/minqt-universitetind*
9. *https://gdu.edu.az//-innovasiyalardepartamenti//*
10. *https://yenixeber.org/tehsil//gence.dovlet.universitet.html*
11. *https://az.wikipedia.org/wiki*
12. *https://unec.edu.az/idareetme/departamentler*
13. *https://unec.edu.az/idareetmemerkezleri/kitabxana*
14. *http://www.anl.az/down/meqale*